


# Səbailin gəncləri "İlhamla irəli!" deyir





Yeni Azərbaycan Partiyası (YAP) respublikanın bütün bölgələrində aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyanın namizədi, ölkə Prezidenti İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verən gənclərlə "İLHAMLA İRƏLİ!" şüarı altında görüş keçirib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev qeyd edib ki, ilk dəfə səs vermək və ümumxalq səsverməsində öz siyasi iradəsini nümayiş etdirmək hər bir gəncin həyatında tarixi hadisədir. İlk dəfə səs vermək nə qədər əhəmiyyətlidirsə, cənab İlham Əliyev kimi müdrik, cəsarətli, uzaqgörən liderə, siyasətçiyə səs vermək ikiqat şərəflidir.

Millət vəkili ölkəmizdə aparılan dövlət gənclər siyasəti, gənclər üçün yaradılmış təhsil və iş imkanları barədə məlumat verərək bildirib ki, cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı, bu sahədə reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün artır.

Ş.Hacıyev gəncləri seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai sabitliyin davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Tələbə və gənclərlə iş üzrə rektorun müşaviri, YAP Nərimanov rayon Gənclər Birliyinin sədri Yusif Babanlı, YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin məsləhətçisi, YAP Səbail rayon Gənclər Birliyinin sədr müavini Fərid Nəsibov, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov, YAP Səbail rayon təşkilatının baş məsləhətçisi Bəyim Nəbiyeva və digərləri cənab İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən danışaraq, daha qüdrətli və dinamik inkişaf edən Azərbaycan naminə gəncləri cənab İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıblar.

Tədbirdə səbailli gənclər cənab İlham Əliyevi dəstəkləyən çoxsaylı şüarlar səsləndirib və yekdilliklə Ona səs verəcəklərini bildiriblər.

# Qubadlı gəncləri cənab İlham Əliyevə səs verəcəklər





Yeni Azərbaycan Partiyasının (YAP) prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qubadlı rayonunun ilk dəfə səs verəcək gəncləri ilə görüş keçirilib. Tədbirdə çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev respublikamızda bütün sahələr kimi, gənclərlə iş sahəsinə də dövlətimiz tərəfindən böyük qayğı göstərildiyinə diqqət çəkib. A.Haxverdiyev ölkəmizdə gənclərin hərtərəfli inkişafı, ictimai-siyasi fəallığının artırılması üçün əlverişli şərait yaradıldığını nəzərə çatdırıb. YAP Qubadlı rayon təşkilatının sədri gəncləri həm ictimai-siyasi həyatda, həm də seçki kampaniyasında daha fəal olmağa, Prezident İlham Əliyevə səs verməyə çağırıb.



Tədbirdə çıxış edən Milli Məclisin üzvü İmamverdi İsmayılov prezident seçkilərinin ölkəmizin həyatında mühüm hadisə olduğunu diqqətə çatdırıb, seçkilərin azad, demokratik və şəffaf keçirilməsi üçün hər bir seçicinin, o cümlədən ilk dəfə səs verəcək gənclərin səsvermədə yüksək məsuliyyət nümayiş etdirməsinin zəruriliyini vurğulayıb: **"Prezident İlham Əliyevin apardığı siyasət rifaha, sosial inkişafa istiqamətlənib. Azərbaycan Prezidenti dövlət başçısı olduğu müddət ərzində hər bir vətəndaşın Prezidenti olmağı bacarıb. Qaçqın və məcburi köçkünlərin həyatında edilən mühüm yeniliklər, qəbul olunmuş Dövlət proqramları bir daha sübut edir ki, Prezident İlham Əliyevin hədəfi yalnız və yalnız inkişafdır".**

Görüşdə çıxış edən Prezident təqaüdçüsü Nahid Abbasov, dünya çempionu Ruslan Həsənov, Humayun Atakişiyeva, Ramil Cəfərov və başqa gənclər gənclərin ölkəmizin ictimai-siyasi həyatındakı fəal rolundan danışıblar. Vurğulayıblar ki, Azərbaycan gəncləri prezident seçkilərində də öz fəallıqları ilə seçiləcək, seçkilərin yüksək səviyyədə keçməsinə öz töhfələrini verəcəklər. Geniş diskussiya şəraitində keçən tədbirdə ilk dəfə səs verəcək gəncləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Xızı seçicilərinin seçimi İlham Əliyevdir!





Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası (YAP) Xızı rayon təşkilatı YAP-ın prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib.

Görüşdə çıxış edən YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev bildirib ki, Azərbaycan növbəti ictimai-siyasi hadisə - prezident seçkiləri ərəfəsindədir. Onun sözlərinə görə, son 15 ildə əldə edilən hər bir uğur bilavasitə cənab İlham Əliyevin apardığı mütərəqqi və məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Çıxışına davam edən F.Haqverdiyev seçiciləri aprelin 11-də fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıb.

Sonra çıxış edən "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev vurğulayıb ki, Azərbaycanda son 15 il ərzində aparılan mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə söz sahibinə çevrilib: **"İstər regional, istərsə də beynəlxalq layihələrin ardıcıllıqla həyata keçirilməsi hər bir azərbaycanlının daha firavan, daha xoşbəxt yaşaması naminə atılan addımlardır və bütün bunlar cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin bariz nümunəsidir".**

Bəhruz Quliyev qeyd edib ki, cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olmasını Özünün əməli fəaliyyəti ilə sübuta yetirib: **"İnanırıq ki, Xızı rayonunun seçiciləri daha böyük nailiyyətlərin əldə edilməsi, Azərbaycanın istər regionda, istərsə də beynəlxalq aləmdə öz yerini möhkəmləndirməsi naminə aprelin 11-də cənab İlham Əliyevə səs verəcəklər".**

# Şabran rayonunun Zeyvə və Qorğan kəndlərində seçicilərlə görüşlər keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Şabran rayon təşkilatı qarşıdan gələn prezident seçkilərində partiyamızın namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində seçicilərlə növbəti görüşlər rayonun Zeyvə və Qorğan kəndlərində keçirilib.

Görüşlərdə çıxış edən YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov son 15 ildə Azərbaycanda aparılan inkişaf siyasətindən danışıb: **"Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və regionların sosial-iqtisadi inkişafını təmin edən siyasət bütünlüklə Azərbaycanın bölgələrinin inkişafında mühüm rol oynayıb".**

M.Balabəyov həmçinin 11 apreldə Şabran seçicilərinin seçiminin Prezident İlham Əliyev olacağına şübhə etmədiyini deyib. Rayon təşkilatının sədri bir daha seçiciləri 11 apreldə YAP-ın namizədi cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən YAP Şabran rayon təşkilatının Şura üzvləri Tofiq Əmrahov, Seymur Qədəşov və başqaları, eləcə də kənd sakinləri şabranlıların hər zaman Prezident İlham Əliyevi dəstəklədiklərini diqqətə çatdırıblar.

# Siyəzən rayonunun Beşdam kəndində seçicilərlə görüş keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) Siyəzən rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyamızın namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Beşdam kənd seçiciləri ilə keçirilib.

Görüşdə çıxış edən YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov partiyamızın namizədi cənab İlham Əliyevin seçki proqramı haqqında məlumat verib. O bildirib ki, bu gün ölkənin bütün bölgələrində cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşlər uğurla davam edir. Sədr həmçinin çıxışında son illərdə ölkəmizin müxtəlif sahələrdə qazandığı uğurların saysız-hesabsız olduğunu qeyd edərək vurğulayıb ki, görülən işlər cənab İlham Əliyevin 11 aprel 2018-ci il prezident seçkilərində qələbəsinə tam zəmin yaradır.

Sonra çıxış edən seçicilər 11 aprel 2018-ci ildə seçki məntəqələrinə gələrək sabitliyə, uğurlu gələcəyə səs verəcəklərini bildiriblər.

# YAP Lənkəran rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir






Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatı YAP-ın prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş Lənkəran şəhər seçiciləri ilə keçirilib.

Görüşdə YAP Lənkəran rayon təşkilatının sədri Möhübbət Babayev çıxış edərək bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, gələcəyə doğru inamla addımlayır. Rayon təşkilatının sədri əlavə edib ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət milli inkişafı təmin edib. Bu gün Azərbaycan vətəndaşlarının Prezident İlham Əliyevi xalqımızın alternativsiz lideri kimi dəyərləndirdiyini deyən M.Babayev əldə edilən uğurların davamlı olması üçün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıb.

Daha sonra çıxış edənlər - təbliğat qrupunun üzvləri N.Allahverdiyev, K.Kazımov, G.Bağırov, R.İbadov, Ə.Əliyev və S.Məmmədov 11 aprel tarixində keçiriləcək prezident seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.